

MİSİR MƏRDANOV,
Azərbaycan Respublikası Təhsil Naziri

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİ

## (1969-2003-cü illərdə Azərbaycan təhsilinin həqiqətləri və reallıqları)

**«Ən böyük şəxslər özündən çox, mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır».**

Türk xalqının böyük oğlu Mustafa Kamal Atatürkün bu tarixi fikri türk dünyasının nadir şəxsiyyətlərindən olan Heydər Əlirza oğlu Əliyevin həyat yolunu tam obyektiv və aydın şəkildə təcəssüm etdirir.

Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən parlaq sima olaraq nəinki bizim xalqımız, habelə bütün dünya tərəfindən qəbul edilir və qiymətləndirilir. Müstəqil Azərbaycan Dövlətinin banisi olan cənab Heydər Əliyev öz şüurlu həyatını Azərbaycanın tərəqqisinə və çiçəklənməsinə, beynəlxalq aləmdə tanınmasına, bütün dünya azərbaycanlılarının hüquq və azadlıqlarının qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasına, ölkə iqtisadiyyatının daim inkişaf etdirilməsinə, Azərbaycanda demokratik dövlət quruculuğuna həsr etmişdir. Bu gün tamamilə haqlı olaraq möhtərəm Prezidentimiz müstəqil Azərbaycanın və Azərbaycançılığın simvolu kimi tanınır.

Azərbaycan ötən əsrin əvvəllərində ilk dəfə qazandığı dövlət müstəqilliyini yalnız XX əsrin axırlarında bərpa etməsinə baxmayaraq, əslində bu tarixi hadisənin təməli dövlət başçımızın 1969-cu ildə respublikanın siyasi rəhbərliyinə gəlişi ilə qoyulmuşdur. Tarixi-xronoloji inkişaf baxımından həyat artıq sübut etmişdir ki, Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyi dövrünü əhatə edən 1969-1982-ci illər ölkəmizin inkişafının intibah dövrü olmuşdur. Əgər həmin dövrdə Azərbaycan istər sosial-iqtisadi, istərsə də ictimai-mədəni sahələrdə dinamik və güclü inkişaf yolu keçməsəydi, demokratik idarəetmənin ilk ruşeymləri yaranmasaydı, xalqımızda milli-mənəvi dəyərlərə qayıdışın əsası qoyulub inkişaf etdirilməsəydi bugünkü müstəqilliyimiz reallığa çevrilməzdi.

Bu gün biz tamamilə haqlı olaraq təhsil sistemimizlə – məktəbəqədər tərbiyə, ümumi, peşə - ixtisas, eləcə də diplomdansonrakı təhsil müəssisələrinin geniş şəbəkəsi, güclü elmi-pedaqoji kadr potensialı ilə fəxr edirik. Bütün bunlar öz mənbəyini məhz elə 1969-1982-ci illərdə möhtərəm Heydər Əliyevin rəhbərliyi altında təhsil sahəsində aparılan uzaqgörən və məqsədyönlü siyasətdən almış, hələ o vaxtlar həyata keçirilən qlobal miqyaslı təhsil quruculuğu gələcək perspektiv inkişafın güclü təməlini qoymuşdur. Həmin illərdə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə qalxmış, bu istiqamətdə ardıcıl aparılan dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır.

1969-1982-ci illərdə Azərbaycan təhsil sistemi və onun inkişaf xronologiyasını özündə əks etdirən bir sıra statistik göstəricilərə nəzər salaq. Həmin dövrdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı isə müvafiq olaraq 110 mindən 147 min nəfərə çatmışdı.

1970-ci ildə Azərbaycanın ümumtəhsil məktəblərində şagirdlərin 40.2 faizi ikinci növbədə oxuyurdu. O zaman həmin göstərici SSRİ üzrə 28.7, Rusiya üzrə 28.3, Gürcüstan üzrə 22.1, Baltikyanı ölkələr üzrə isə 17.6 faiz təşkil edirdi.

1970-80-ci illərdə Heydər Əliyevin uzaqgörən siyasəti ilə respublikada aparılan geniş miqyaslı məktəb tikintisi növbəlilik üzrə göstəricinin yaxşılaşdırılmasına güclü təkan verdi. Belə ki, 1970-ci ildə Azərbaycanda 28300 şagird yeri olan 90 ümumtəhsil məktəb binası tikilmişdisə, 1975-ci ildə 2 dəfəyə yaxın çox, yə'ni 48200 nəfərlik 100 məktəb binası inşa olunmuş, ümumiyyətlə isə həmin illərdə 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. Nəti-cədə şagirdlərin II növbədə oxuma göstəricisi 1978-ci ildə 30.8, 1980-ci ildə 28.1, nəhayət, 1985-ci ildə isə 24.9 faizə enmişdi ki, bununla da ümumi şagirdlərin 75.1 faizinin I növbədə təhsil almasına real şərait yaradılmışdı.

Həmin illərdə məktəblərin tədris, texniki və elmi-metodiki vasitələrlə tə'minatı da əsaslı şəkildə yaxşılaşmışdı. Təkcə onu demək kifayətdir ki, 1978-ci ildə fizika və kimya kabinetləri ilə təminat 92.2 faizə qədər yüksəlmişdi. Məktəb kitabxanalarının təminatı isə 97.9 faizə qalxmışdı. Təhsil müəssisələrinin kadrlarla təminatında ciddi uğurlar əldə edilmişdi. Belə ki, 1978-ci ildə orta məktəblərdə çalışan 108 min müəllimdən 1970-ci ildəki 51.7 faiz müqabilində 65.3 faizinin ali təhsili olmuş, V-X siniflərdə işləyən müəllimlərin isə 83.7 faizini ali təhsillilər təşkil etmişdir.

1970-ci illərdə məktəb müəllimlərinin rəğbətləndirilməsi sahəsində Heydər Əliyevin məqsədyönlü fəaliyyəti 8718 nəfər maarif işçisinin keçmiş SSRİ-nin orden və medallarına, o cümlədən 3 nəfər müəllimin həmin dövrün ən yüksək adı olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi ilə nəticələnmiş, 817 müəllim «Azərbaycan SSRİ-nin Əməkdar müəllimi» adı almış, müəllimlərimiz SSRİ və Respublika Ali Sovetlərinə deputat seçilmişlər. Bütün bunlar Heydər Əliyevin müəllim əməyinə, müəllim şəxsiyyətinə olan sonsuz ehtiramının, təhsil işinə əsl rəhbər qayğısının, tamamilə haqlı olaraq, məntiqi nəticəsi kimi qiymətləndirilir.

Azərbaycan təhsilinin mühüm tərkib hissəsi olan texniki peşə təhsilinin zəngin tarixi olsa da, onun inkişafının yüksəliş dövrü məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. 70-ci illərdə Azərbayca-

nın texniki peşə təhsili özünün yeni yüksəliş dövrünə qədəm qoymuş, həmin illərdə texniki peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1.7 dəfə, təhsil alanların sayı isə 2.5 dəfə artmışdı. Bu dövrdə Azərbaycanda gedən iqtisadi quruculuq prosesi, sənaye və kənd təsərrüfatının intensiv inkişafı yüksək ixtisaslı fəhlə kadrları hazırlanması tələbatını ortaya qoydu və bu tələbat ilk növbədə texniki peşə təhsili şəbəkəsinin hərtərəfli inkişafı üçün real imkanlar açdı.

Heydər Əliyevin hakimiyyətə gəlişinin təkcə ilk iki ili ərzində 16 yeni texniki peşə məktəbi açılmış, 20 texniki peşə məktəbi orta texniki peşə məktəbinə çevrilmiş, 3120 şagird yeri olan tədris və 2520 yerlik yataqxana binaları tikilmiş, əlavə olaraq 244 tədris emalatxanası, kabinet və laboratoriyalar yaradılmışdır. 1971-75-ci illərdə 35 şəhər və rayonda 54 yeni texniki peşə məktəbi fəaliyyətə başlamışdı. Ümumiyyətlə, həmin dövrdə texniki peşə məktəblərində 165120 nəfər ixtisaslı fəhlə kadrı hazırlanmışdır ki, bu da əvvəlki illərdən 1.7 dəfə çox idi.

1975-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə «Orta kənd texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul edildi. Bundan sonra keçən 4 ildə kənd texniki peşə məktəblərinin şəbəkəsi 3 dəfə artaraq onların sayı 44-ə çatdırıldı. 1976-80-cı illərdə texniki peşə təhsili sisteminin iqtisadi və sosial inkişafı planı hazırlanıb təsdiq olundu. Məhz bu plana uyğun olaraq peşə təhsili müəssisələrində 235 peşə və ixtisas üzrə 43 nazirlik və baş idarə üçün ixtisaslı fəhlə kadrları hazırlanmışdır.

1970-82-ci illərdə respublikada texniki peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, 1970-ci ildə fəaliyyət göstərən 76 texniki peşə məktəbində 40.9 min şagird təhsil alırdısa, bu rəqəm müvafiq olaraq 1980-ci ildə 173 məktəb və 99.8 min şagirdə, 1982-ci ildə isə 184 məktəb və 109 min şagirdə çatdırılmışdı.

1982-83-cü dərs ilində 184 texniki peşə məktəbində 230 peşə üzrə 110 min şagird təhsil almışdı. Bu, 1970-ci ildə mövcud olmuş texniki peşə məktəbi şəbəkəsi və orada təhsil alan tələbə kontingenti ilə müqayisədə 2 dəfədən çox idi. Ümumiyyətlə, 1978-87-ci illərdə Azərbpaycanda 5276 şagird yeri olan texniki peşə kompleksləri, 2400 şagird yeri olan tədris binaları, 2800 şagird yeri olan laboratoriya-təcrübə korpusları, ümumi sahəsi 15559 kv.m. olan yataqxana binaları tikilib istifadəyə verilmişdir. Bu illərdə 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriyası, ümumi torpaq sahəsi 1427 hektar olan 22 təlim təsərrüfatı yaradılmışdır. Bütün bunların nəticəsi idi ki, o illərdə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çalışan ixtisaslı fəhlələrin 70-80 faizini məhz elə texniki peşə məktəblərinin məzunları təşkil edirdi.

1970-80-cı illərdə orta ixtisas təhsili şəbəkəsinin də inkişaf etdirilməsi möhtərəm Heydər Əliyevin diqqət mərkəzində saxlanılmış, Azərbaycanda məhz elə həmin dövürdə 7 müxtəlif profilli yeni texnikumlar (Naxçıvan və Lənkəran Musiqi, Tovuz Sovxoz, Bərdə Pambıqçılıq, Naxçıvan və Zaqatala Politexnik, Əli-Bayramlı İndustrial Sənaye) açılmış, fəaliyyət göstərən tədris müəssisələrinin maddi-texniki bazası xeyli gücləndirilmişdir. Belə ki, həmin illərdə Gəncə İnşaat Texnikumu üçün ümumi sahəsi 2800 kv.m. olan yeni tədris korpusu və 436 yerlik iki yataqxana korpusu, Şuşa Pedaqoji Texnikumu üçün yeni yataqxana korpusu, Bakı Neft Texnikumu üçün 920 yerlik 2 yataqxana korpusu, Bakı Kitabxanaçılıq Texnikumu üçün 2800 kv.m. yeni tədris korpusu və 394 yerlik 5 mərtəbəli yataqxana korpusu, Bakı Plan İqtisad Texnikumu üçün faydalı sahəsi 4700 kv.m. olan yataqxana və yeməkxana, Şəki Pedaqoji və Naxçıvan Politexnik Texnikumları üçün yeni yataqxana korpusları və s. tikilib istifadəyə verilmişdir. Artıq 1979-80-ci illərdə respublikanın orta ixtisas məktəbləri ümumi sahəsi 383253 kv.m. olan tədris korpusları, ümumi sahəsi 120 min kv.m. zəngin yataqxana binalarına malik idilər.



70-ci illərdə Azərbaycanın ali məktəbləri də böyük inkişaf yoluna qədəm qoymuş, 6 ali məktəb, o cümlədən Azərbaycan Neft və Kimya İnstitutu (1970), Azərbaycan Dövlət Universiteti (1971), Azərbaycan Pedaqoji İnstitutu (1972), Azərbaycan Dövlət Konservatoriyası (1972), Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (1979), Azərbaycan Tibb İnstitutu (1980) Heydər Əliyevin şəxsi təşəbbüsü ilə keçmiş Sovet İttifaqının yüksək ordenlərinə layiq görülmüş, bir çox ali məktəb işçiləri yüksək dövlət mükafatları ilə təltif olunmuşdur. 1980-cı ildə Heydər Əliyevin təşəbbüsü ilə «Azərbaycan SSR əməkdar ali məktəb işçisi» adı təsis edilmişdir. Bütün bu tədbirlər tezliklə ali məktəb həyatında mənəvi-psixoloji iqlimi kökündən dəyişdirmiş, ali təhsildə keyfiyyət dəyişiklərinə gətirib çıxarmışdır.

70-ci illərdə və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görülmüşdür. Ölkə rəhbərimizin təşəbbüsü və atalıq qayğısı ilə ali məktəblər üçün tədris korpusları, yataqxana kompleksləri tikilmişdir. 1971-1975-ci illərdə Neft və Kimya, Rus dili və Ədəbiyyatı, Gəncə Pedaqoji İnstitutları, eləcə də Azərbaycan Dövlət Universiteti üçün tikilmiş nəhəng tədris korpuslarının hesabına respublikda fəaliyyət göstərən ali məktəblərin tədris sahələri 238 min kv. metr olmuşdur, 1975-1980-cı illərdə isə İnşaat Mühəndisləri, Politexnik, Dövlət Pedaqoji İnstitutları və Azərbaycan Dövlət Universiteti üçün tikilmiş tədris korpuslarının hesabına respublika üzrə bu göstərici 372 min kv. metrə çatdırılmışdır. Əgər 1971-1975-ci illərdə intensiv aparılan tikinti işləri nəticəsində ali məktəblərimizin yataqxana komplekslərində ümumi yaşayış sahəsi 35.8 min kv. metr artırılmışdırsa, 1980-cı ildə bu rəqəm 219 min kv. metrə çatdırılmışdır. Burada Neft və Kimya İnstitutu üçün 9 mərtəbəli 826 yerlik, Naxçıvan Pedaqoji İnstitutu üçün 438 yerlik, Azərbaycan Dövlət Universiteti üçün 2100 yerlik 6 yaşayış korpusu, İnşaat Mühəndisləri və Politexnik İnstitutları üçün 3256 yerlik 11 yaşayış korpusu, Xalq Təsərrüfatı İnstitutu üçün 9 mərtəbəli böyük yataqxana korpuslarının tikilib istifadəyə verilməsi xüsusilə qeyd olunmalıdır. Həmin dövrlərdə Azərbaycan Dövlət Universiteti üçün tələbə şəhərciyinin inşaası haqqında, habelə Azərbaycan Kənd Təsərrüfatı Akademiyası üçün Gəncədə xüsusi tələbə şəhərciyinin salınması barədə ölkə başçımız tərəfindən xüsusi qərarların qəbul edilməsi də obyektiv reallıqlardandır.

Heydər Əliyevin 1970-80-ci illərdə Azərbaycanda ali təhsilin inkişafı yolundakı böyük xidmətlərindən biri də yeni ali təhsil ocaqlarının yaradılması idi. Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbyacanda 5 yeni ali məktəb (İnşaat Mühəndisləri İnstitutu - 1975, Texnologiya İnstitutu - 1980, Xarici Dillər İnstitutu - 1972, Naxçıvan Pedaqoji İnstitutu - 1972, Xankəndi Dövlət Pedaqoji İnstitutu - 1973) yaradılmış, çoxlu ixtisaslar, kafedralar, problem laboratoriyaları açılmışdır. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 17 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi ki, bütün bu uğurlar da Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın kadr potensialının gücləndirilməsinə vətəndaş qayğısının nəticəsində mümkün olmuşdu.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də 1970-80-ci illərdə şəxsi təşəbbüsü ilə və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmasıdır.

1969-70-ci dərs ilində respublikadan kənara 60 nəfər plana qarşı vur-tut 47 nəfər təhsil almağa göndərilmişdirsə, az müddətdə bu rəqəm 1969-cu illə müqayisədə 1975-ci ildə 14 dəfədən çox artaraq 700 nəfərə yaxın olmuşdur. 1975-ci ildən başlayaraq gənclərin respublikadan kənara təhsil almağa göndərilməsi daha intensiv xarakter almış və 1978-ci ildən etibarən respublikadan kənara hər il 800-900 tələbə göndərilməsinə nail olunmuşdur. Bu da əvvəlki illərlə müqayisədə həm tələbələrin, ali məktəblərin və ixtisasların sayı, həm də onların Azərbaycan üçün əhəmiyyətliliyi baxımından yüksək artım sürəti ilə müşayiət edilmişdir. Belə ki, təkcə 1977-ci ildə 1970-ci illə müqayisədə göndərilən tələbələrin sayı 818 nəfərə, ixtisasların sayı 5 dəfə artaraq 244-ə çatmış, ali məktəblərin sayı 140-a, onların yerləşdiyi şəhərlərin coğrafiyası genişlənərək 40-a yüksəlmişdir. Bu proses sonrakı illərdə də (1978-1982) intensiv xarakter almış, 1978-ci illə müqayisədə 1982-ci ildə tələbələrin sayı 11 faiz artmış, ali məktəblərin sayı 151-dən 170-ə yüksəlmiş, ixtisasların sayı 244-dən 250-yə, ən zəruri istiqamətlərin sayı isə 80-ə çatmışdır. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların yeri 1970-ci ilədək 40 faiz təşkil edirdi. Möhtərəm Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə göndərilənlər içərisində azərbaycanlıların real çəkisi 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97.6 faizə yüksəlmişdi.

Möhtərəm Heydər Əliyevin 70-80-cı illərdə respublikadan kənarda keçmiş SSRİ-nin aparıcı ali məktəblərində milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də hərbi milli kadrların yetişdirilməsi yolundakı tarixi xidmətləridir. 70-80-cı illərin ən əhəmiyyətli hadisələrindən biri kimi indi müstəqillik dövründə çox vacib olan respublikamızda ilk orta və ali hərbi təhsil sisteminin yaradılması ilə yanaşı, o illərdə keçmiş SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin sistemli şəkildə göndərilməsi faktı xüsusilə diqqətəlayiqdir. Möhtərəm Heydər Əliyevin birbaşa rəhbərliyi və qayğısı ilə 1972-ci ildən etibarən hər il 300-400, 1970-ci illərin sonu və 80-cı illərin əvvəllərindən isə Azərbaycandan kənara ildə 800-900 nəfər gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. Bundan əlavə, 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Cəmşud Naxçıvanski adına hərbi məktəb yaradıldı və bu da Azərbaycanda hərbi məktəblər şəbəkəsinin sonrakı inkişafında mühüm rol oynadı. İftixar hissi ilə qeyd edilməlidir ki, bu gün müstəqil Azərbaycanın milli ordusuna rəhbərlik edən zabitlərin əksəriyyəti məhz Heydər Əliyevin xeyr-duası ilə o illərdə təhsil almağa göndərilən məzunlardır.

Azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması üçün möhtərəm Heydər Əliyevin həmin illərdəki uzaqgörən siyasəti, konkret fəaliyyəti, atdığı cəsarətli addımlar əslində iki tarixi missiyanın həyata keçirilməsi idi. Birincisi, o dövrdə respublikamızda hazırlanması mümkün olmayan minlərlə gəncin yüksək ixtisasa yiyələnməsi və bununla da Azərbaycan iqtisadiyyatı və sosial sferasının belə kadrlara olan real tələbatının ödənilməsi ilə bağlı idisə, bu istiqamətdə ikinci, fikrimcə ən strateji əhəmiyyətli missiya məhz həmin gənclərdən bir hissəsinin ailə həyatı quraraq Rusiya, Belorus, Ukrayna, Baltikyanı ölkələrdə qalması və bununla da həmin ölkələrdə gələcək Azərbaycan diasporunun formalaşdırılması idi. Əgər adı çəkilən ölkələrdə bu gün fəaliyyət göstərən Azərbaycan diasporunun sosial tərkibinə diqqət yetirilərsə, onda cənab Heydər Əliyevin həmin dövrdəki məqsədyönlü siyasətinin açıq-aydın nəticələrini görmək heç də çətin deyil.

Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəriciləri həm də respublikada azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin təmin edilməsi, xalqın tarixi yaddaşının özünə qaytarılması, milli dövlətçilik arzularının və hislərinin güclənməsi və real siyasi amilə çevrilməsi olmuşdur. İndi təkcə respublikamızda deyil, həm də dünyanın qabaqcıl ölkələrində belə Azərbaycanın intibah dövrü kimi dəyərləndirilən 1969-82-ci illər xalqımızın qəlbində, düşüncələrində azadlıq, müstəqillik, dövlətçilik ideyalarının canlanmasına real zəmin yaratmış, 90-cı illərin əvvəllərində başlamış milli azadlıq hərəkatının mənəvi əsası və hərəkətverici qüvvəsinə çevrilmişdir.

1969-1982-ci illərdə Azərbaycanın şöhrətinin artması, onun bütün dünyada tanınması, eyni zamanda xalqımızın elm, təhsil və mədəniyyətinin, tarixi adət və ənənələrinin təbliği istiqamətində həyata keçirilən tədbirlər də azərbaycançılıq və soykökə qayıdış ideyalarının dirçəldilməsində mühüm yer tuturdu. Azərbaycanın tarixi şəxsiyyətlərinin adlarının əbədiləşdirilməsi, görkəmli elm, təhsil və mədəniyyət xadimlərinin SSRİ-nin yüksək fəxri adlarına layiq görülməsi, keç-

miş SSRİ respublikalarında və bir sıra sosialist ölkələrində Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi respublikamızın qədim və böyük mədəniyyət diyarı olduğunu bütün dünyaya bəyan edirdi. Təsadüfi deyil ki, Azərbaycan dili ilk dəfə Heydər Əliyevin respublikada rəhbərliyi dövründə tədricən həqiqi dövlət dili statusu aldı və bu tarixi akt Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında təsbit olundu. Aydın məsələdir ki, o dövr üçün bu son dərəcə cəsarətli addımın atılması heç də asan məsələ deyildi.

Dövlət başçımızın 1982-1987-ci illərdə SSRİ-nin siyasi rəhbərliyində ali vəzifələrdən birini tutması da onun fəaliyyətinin milli məzmununa heç bir xələl gətirməmiş, əksinə, doğma xalqın müqəddəratı onu daim düşündürmüş, Azərbaycanı müstəqil dövlətə çevirmək arzusu bu qüdrətli dövlət xadimini heç vaxt tərk etməmişdi.

Həmin illərdə möhtərəm Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavini kimi bir çox sahələrlə yanaşı, təhsil sektoruna da rəhbərliyi həyata keçirirdi. Bu dövrü tamamilə haqlı olaraq SSRİ-də təhsil sisteminin yüksəlişi dövrü adlandırırlar. Bu yüksəliş bilavasitə görkəmli dövlət xadimi Heydər Əliyevin müstəsna xidmətləri ilə bağlı idi. Təsadüfi deyildi ki, 1984-cü ildə SSRİ-də başlanan təhsil islahatına da məhz Heydər Əliyev rəhbərlik edirdi. O dövrdə məktəb islahatı ilə bağlı rəsmi şəkildə qəbul edilmiş dövlət sənədlərindəki müddəaların bir qismi bu gün də öz aktuallığında qalmaqdadır. Xüsusilə təhsilin demokratikləşdirilməsi, idarəetmənin dövlət-ictimai xarakterdə qurulması, 6 yaşlı uşaqların təhsili üçün zəruri şəraitin yaradılması, təhsil sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi, aztə'minatlı ailələrdən olan; sağlamlıq imkanları məhdud; kimsəsiz və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi və bu kimi digər məsələlər 18 il keçsə də, indi də öz əhəmiyyətini itirməmişdir.

Ötən əsrin sonuncu onilliyi bəşər tarixinə nəhəng ölkənin – Sovetlər Birliyinin dağılması kimi tarixi bir hadisə yazdı. Tamamilə təbii olaraq, vaxtilə bu Birliyə daxil edilmiş ölkələr bir-birinin ardınca müstəqillik aktlarını bəyan etdilər. Başqa sözlə, bu ölkələr bir ictimai-siyasi formasiyadan digərinə keçid kimi bir dilemma ilə qarşı-qarşıya durdular.

Ölkəmizin bu tarixi dövrdə xronoloji inkişaf dinamikası izlənilərkən açıq-aşkar görünür ki, Azərbaycan üçün həmin dövr daha çətin, daha problemli, daha mürəkkəb olmuşdur. Torpaqlarımızın mənfur «qonşu» tərəfindən işğalı, çoxsaylı insan tələfatı ilə müşayət olunan müharibə, bir-birinin ardınca naşı, səriştəsiz, milli mənlik hisslərindən uzaq adamların ölkə rəhbərliyinə gəlişi, hakimiyyət davası, hərci-mərclik həmin dövrdə Azərbaycan Respublikası üçün tam səciyyəvi olan əsl reallıqlar idi. Nəticədə ölkə vətəndaş müharibəsi həddinə çatmış, millət «olum və ya ölüm» dilemması qarşısında qalmışdı. Hamı vəziyyətin stabilləşməsini, normal həyat tərzinin bərqərar olmasını, ictimai-sosial və iqtisadi münasibətlərin tez bir zamanda tənzimlənməsini arzulayırdı. Belə bir şəraitdə xalqın təkidli tələbi ilə ölkəmizdə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev



Azərbaycanı dağılmaq, parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Müstəqil Azərbaycanın inkişaf tarixi məhz elə bu dövrdən hesablanmağa başlandı.

1993-1995-ci illər hakimiyyətə hücumlar, ölkə rəhbərinə sui-qəsdlər, bütün vasitələrlə maneolmalar, perspektiv üçün görülən hər bir işə, atılan hər bir addıma min bir yolla qarayaxmalar, bir sözlə inkişafı tormozlama halları ilə xarakterik olmuşdur. Ölkədaxili bu cür ciddi problemlərin tüğyan etdiyi bir dövrdə dövlət başçımızın polad iradəsi, qətiyyəti və müdrikliyi xalqımızda xoşbəxt gələcəyə böyük inam yaratdı. Azərbaycan 1994-cü ilin may ayında NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edən «Sülh Naminə Tərəfdaşlıq» Proqramına qoşuldu, həmin ilin sentyabr ayında bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaq Azərbaycan, Amerika, Böyük Britaniya, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanının ən qabaqcıl neft şirkətlərinin konsorsiumu arasında tarixə «Əsrin müqaviləsi» kimi daxil olan neft müqaviləsi imzalandı. Azərbaycan Avropa-Atlantika Əməkdaşlıq Şurasına üzv qəbul edildi, dünya siyasətini müəyyən edən dövlətlər və siyasətçilərlə yaxın əlaqələr yaradıldı. Azərbaycan Prezidenti 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu Sessiyasının tribunasından Azərbaycan həqiqətlərini bütün dünyaya bəyan etdi, bu ölkənin sülhsevər, humanst, demokratik dəyərləri üstün tutduğunu sübuta yetirdi.

Möhtərəm Prezidentimizin şəxsi rəhbərliyi altında 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası hazırlandı və ümumxalq səsverməsi yolu ilə həmin ali Qanun həyata vəsiqə qazandı. Sanki bu tarixi hadisə Azərbaycanda demokratik təsisatların yaranması, insan hüquq və azadlıqlarının qorunması, hüquq islahatlarının aparılması kimi proseslərin intensiv şəkildə həyata keçirilməsi üçün «yaşıl işıq» yandırdı.

Azərbaycan dövlətinin bu istiqamətdəki siyasətinin prioritetləri əsasında bütün sahələrdə, o cümlədən də təhsil sahəsində islahatlara hazırlıq mərhələsi məhz 1995-1998-ci illərə təsadüf edir. Bu zaman artıq müəyyənləşdirilmiş istiqamətlər üzrə hüquqi baza möhkəmləndirilir, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurulur, vətəndaşların Azərbaycan Konstitusiyasında təsbit olunmuş bütün hüquq və azadlıqları ilə yanaşı təhsil hüquqlarının da təminatı həyata keçirilir, yeni iqtisadi sistemə keçid şəraitində konkret təhsil siyasəti formalaşdırılır, sistemin təkmilləşdirilməsi, yeniləşdirilməsi məqsədilə islahatlara intensiv hazırlıq işləri aparılırdı.

1998-ci ildə cənab Prezident təhsil sahəsində İslahat Proqramının hazırlanması üçün öz xüsusi Sərəncamı ilə Dövlət Komissiyasını yaratdı. Başqa sözlə, artıq təhsil sahəsində konkret strateji Proqram üzrə islahatların başlanması bəyan edildi. Dövlət Komissiyası tərəfindən çox qısa bir müddətdə «Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı» hazırlandı, ətraflı müzakirələrdən sonra təkmilləşdirilmiş variantda həmin Proqram 1999-cu ildə ölkə başçımız tərəfindən imzalandı. Bununla da Azərbaycan təhsilinin gələcək inkişaf Konsepsiya-

sı müəyyənləşdirildi, təhsilin ayrı-ayrı pillələri üzrə əməli fəaliyyətə başlanıldı. Faktiki olaraq Azərbaycanda islahatlar prosesinə Dünya Bankının qoşulması, digər beynəlxalq təşkilatların islahat prosesində fəal iştirakı, Azərbaycan təhsilinin dünya təhsil sisteminə sürətli inteqrasiyası, inkişaf etmiş ölkələrlə təhsil sahəsində partnyorluq əlaqələrinin intensiv şəkildə genişləndirilməsi, əslində, Heydər Əliyev şəxsiyyətinin beynəlxalq aləmdə böyük nüfuzu ilə sıx bağlıdır. Məhz elə bunun nəticəsidir ki, bu gün dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alır. İftixar hissi ilə qeyd edilməlidir ki, cənab Heydər Əliyev respublikamızda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra xaricdə təhsillə bağlı mütərəqqi ən'ənə bərpa edildi və hazırda gənclərimiz nəinki Rusiyada, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Fransa, Yaponiya, eyni zamanda Türkiyə, İran, Çin, Çexiya, Slovakiya, Rumıniya, Polşa və Misirin ali məktəblərində də uğurla təhsil alırlar. Təqribən 50 xarici ölkədən Azərbaycanın müxtəlif ali məktəblərində 2000-dən çox tələbə, magistr, aspirant elmi biliklərə yiyələnirlər. Bu gün xarici əlaqələr sahəsində əsas strateji məqsəd möhtərəm Prezidentimizin tövsiyələri ilə hər bir ali təhsil müəssisəsinin beynəlxalq fəaliyyət subyektinə çevrilməsinə imkan yaratmaq, Avropa İqtisadi Birliyinin, YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif təhsil proqramları və layihələrində iştirak etmək kimi müəyyənləşdirilmişdir.

Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasından alınan Öyrənmə və İnnovasiya krediti ilə 1999-cu ilin sentyabrından Azərbaycanda Təhsil İslahatı Layihəsinin həyata keçirilməsinə başlanmışdır. Kredit müqaviləsini cənab Prezidentin xüsusi sərəncamına uyğun olaraq Beynəlxalq İnkişaf Assosiyasiyası ilə Azərbaycan hökuməti bağlamışdır. Artıq Təhsil Nazirliyi Dünya Bankı ilə birgə 2003-2013-cü illərdə Azərbaycanda təhsilin inkişafı üzrə strateji istiqamətləri müəyyənləşdirmiş və yeni Saziş üçün Fəaliyyət Proqramı hazırlamışdır.

Möhtərəm Prezidentimizin Azərbaycan Müəllimlərinin XI qurultayındakı məktəb tikintisi, təmiri və təchizatına yardım göstərilməsi ilə bağlı çağırışına cəmiyyətdə böyük əks-səda verilmişdir. Bununla əlaqədar olaraq məktəb tikintisi, eləcə də təmir və bərpa işlərinin görülməsi sahəsində beynəlxalq təşkilatların, xarici ölkələrin Azərbaycanda akreditə olunmuş səfirliklərinin apardıqları işlər xüsusi qeyd edilməlidir. Son dövrlərdə müxtəlif xarici təşkilatlar tərəfindən Respublikamızın 10 rayonunda 8936 yerlik 28 məktəb binası tikilmiş, 15 rayonda 29045 yerlik 70 məktəb binası əsaslı tə'mir olunmuş, tikinti quraşdırma işləri həyata keçirilmişdir. Ümumiyyətlə isə 1998-2002-ci illər ərzində respublikamızda 116 yeni məktəb tikilmiş, tikinti-yenidənqurma işləri aparılmışdır.

Möhtərəm Prezidentimizin respublikada siyasi hakimiyyətə qayıdışından sonra ölkənin təhsil sistemində yaranmış güclü inkişaf tendensiyaları, yenilik və novatorçuluq, islahatlar istiqamətində məqsədyönlü fəaliyyət təkcə bunlarla bitmir. Təhsil sektoru üçün büdcə vəsaitinin ardıcıl olaraq ilbəil artması (əgər 1990-cı ildə təhsil sektoruna ümumi büdcədən 113.2 milyard manat vəsait ayrılırdısa, bu rəqəm 1995-ci ildə 375.8 milyard manata, 2000-ci ildə 906 milyard manata, 2003-cü ildə isə 1990-cı ilə nisbətən 10 dəfədən də çox artırılaraq 1.216 trilyon manata çatdırılmışdır), müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi, bununla əlaqədar son 10 ildə onların əmək haqlarının 9 dəfə artırılması üçün xüsusi Fərmanların imzalanması, Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2.4 milyard manat vəsaitin ayrılması, tədris müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi, 6 ali məktəbimizə muxtariyyət hüququ, bir çox institutlara isə «Universitet» statusunun verilməsi, təhsil tariximizdə ilk dəfə olaraq Azərbaycan Müəllimlər İnstitutu və onun 12 regionda filiallarının yaradılması, 6 yeni Akademiyanın (Rəssamlıq, Milli Aviasiya, Dənizçilik, Milli Təhlükəsizlik, Musiqi, İdarəçilik), Azərbaycan Milli Konservatoriyasının, eləcə də Azərbaycan Təyyarəçilik Məktəbinin təsis edilməsi, 15 özəl ali məktəbin fəaliyyətinin rəsmi şəkildə qanuniləşdirilməsi, təhsil sistemi, eləcə də təhsil müəssisələrinin idarə olunması işinin müasir mexanizmlərlə qurulması, kompüterlərlə təchizat işinin intensiv şəkildə aparılması, qaçqın vətəndaşlarımızın təhsilinə xüsusi qayğının göstərilməsi, məktəblilərimizin dərsliklərlə təminatı məsələsində dövlət siyasətinin müəyyənləşdirilməsi və sair bu kimi fəaliyyət məhz elə möhtərəm Prezidentimizin təhsil sisteminə göstərdiyi atalıq qayğısı nəticəsində mümkün olmuşdur.

Təkcə onu qeyd etmək kifayətdir ki, ölkə əhalisinin təxminən 20 faizini təşkil edən ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə dövlət təminatına mərhələlərlə (hələlik I-IV siniflərdə) keçilməsi haqqında xüsusi qərar 1994-cü ildə məhz ölkə başçımızın şəxsi təşəbbüsü ilə qəbul edilmişdir. Həmin qərarın icrası nəticəsində son illərdə ibtidai siniflər üzrə hər iki bölmə üçün 24 adda, V-XI siniflər üzrə isə 94 adda yeni milli dərsliklər hazırlanıb şagirdlərin istifadəsinə verilmiş, ibtidai siniflər üzrə 11, ümumtəhsil məktəblərinin ayrı-ayrı sinifləri üçün 14 fənn proqramı çap edilmişdir. V-XI sinif dərsliklərinin çapına zəruri şəraitin yaradılması məqsədilə 2000-2001-ci illərdə Respublika Hökuməti tərəfindən 7.4 milyard manat faizsiz kredit ayrılmışdır ki, bu da öz növbəsində yeni dərsliklərin çapı prosesinin tənzimlənməsi və onların vaxtında istifadəyə verilməsi üçün real şərait yaratmışdır. Hal-hazırda da bu iş intensiv şəkildə «Dərsliklərin hazırlanması, nəşri və təminatı sahəsində Dövlət Proqramı»na uyğun olaraq davam etdirilir.

Yeri gəlmişkən bir vacib məqama da diqqət yetirilməlidir. Elə bu günlərdə möhtərəm Prezidentimizin xüsusi sərəncamı ilə təsdiq olunmuş «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf sahəsində Dövlət Proqramı»nda 2003-cü ildən etibarən ümumtəhsil məktəblərinin V-XI sinif dərsliklərinin də mərhələlərlə – tədricən pulsuz təminatına keçidi nəzərdə tutulmuşdur. Başqa sözlə məhz elə möhtərəm Prezidentimizin bu tarixi qərarı gələcəkdə çoxmilyonlu məktəbli ordusunun pulsuz dərsliklərlə tam tə'minatı üçün real şərait yaratmışdır.

Hər il ən yüksək bal toplayaraq ali məktəblərə daxil olmuş 25 nəfər gənc üçün xüsusi Prezident təqaüdünün, eləcə də istedadlı gənclər üçün Fəxri təqaüdlərin, Prezident Fərmanı ilə «Qızıl Kitab»ın təsis olunması da ölkəmizdə

istedadlı uşaq və gənclərə göstərilən dövlət qayğısının daim gücləndirilməsi ilə əlaqədardır.

Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri də yeni əlifbaya keçilməsi – latın qrafikalı əlifbanın tətbiqinin əsl reallığa çevrilməsidir. Böyük fəxrlə qeyd edilməlidir ki, möhtərəm Prezidentimizin «Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır» tarixi çağırışı və bununla əlaqədar xüsusi Fərmanı təhsil sistemində bu məsələnin tamlıqla həlli ilə nəticələnmişdir.

Azərbaycanın təhsil tarixində ilk dəfə olaraq ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1999-cu ildə hazırlanıb hökumət tərəfindən təsdiq edilmişdir. Şagirdlərin yaş və fizioloji xüsusiyyətləri nəzərə alınmaqla hazırlanan bazis tədris planı çoxvariantlı işçi tədris planlarının tətbiqinə, şagirdlərin meyl və maraqlarının nəzərə alınmasına imkan vermiş, məktəblərimizdə humanistləşdirmə, demokratikləşdirmə prinsiplərinin reallaşdırılması üçün əlverişli şərait yaratmışdır ki, bunlar da ölkə başçımızın ümumi orta təhsilin inkişaf etdirilməsi istiqamətində qarşıya qoyduğu konkret tapşırıq və vəzifələrlə birbaşa bağlıdır.

Bütün bunlarla yanaşı, məktəbəqədər, texniki peşə və orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, ali məktəblərdə ikipilləli təhsilə keçid, qeyri-dövlət təhsil müəssisələrinin səmərəli fəaliyyəti üçün şəraitin yaradılması, ixtisasartırma və yenidənhazırlanma təhsili sisteminin müasir tələblərə uyğun yenidən qurulması, keyfiyyətin qiymətləndirilməsinin yeni mexanizmlərinin hazırlanması, Dünya Bankı ilə birgə 10 illik islahat strategiyasının müəyyənləşdirilməsi, Yoxsulluq Proqramı çərçivəsində təhsilin statusu və rolunun artırılması və digər bu kimi sahələrdə həyata keçirilən qlobal miqyaslı tədbirlər də məhz elə möhtərəm Prezidentimizin rəhbərliyi ilə günbəgün əsl reallığa çevrilən islahatların bariz nümunəsidir.

Xüsusilə qeyd edilməlidir ki, 1999-2002-ci illərdə təhsil sektoruna investisiya qoyuluşu istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, həmin illər ərzində 7 ali təhsil müəssisəsinin tədris korpuslarında təmir və yenidənqurma işlərinə 3 milyard 840 milyon manat, Təhsil Nazirliyinin yeni inzibati binasının istifadəyə verilməsi üçün 1 milyard 150 milyon manat, Kredit Sazişi çərçivəsində İslahat Proqramının reallaşdırılması istiqamətində Azərbaycan tərəfinə düşən pay üçün 1 milyard 648 milyon manat, Bakı şəhərində yerləşən 3 orta ümumtəhsil məktəbində təmir, bərpa işlərinin aparılması üçün 250 milyon manat, ümumilikdə isə Hökumət tərəfindən təhsil sektoruna 7 milyarda yaxın investisiya vəsaiti ayrılmış və təyinatı üzrə istifadə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri möhtərəm Heydər Əliyevin ƏTƏT-in İstanbul Zirvə toplantısında Gürcüstan və Türkiyə Prezidentləri ilə birgə imzaladığı Saziş çərçivəsində tikintisinə başlanmış Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri boyunca Azərbaycan ərazisində yerləşən yaşayış məntəqələrinin gələcək 2-3 il ərzində sosial sahələri, o cümlədən 41 yeni məktəb tikintisi, məktəblərin əsaslı tə'miri və avadanlıqlarla təchizatı üçün 6 milyon



ABŞ dolları məbləğində investisiya ayrılması da bu günün obyektiv reallıqlarındandır.

Ali təhsil pilləsində ödənişli əsaslarla təhsilalma barədə möhtərəm Prezidentimiz tərəfindən hələ 1995-ci ildə imzalanmış tarixi Sərəncam, faktiki olaraq bu pillənin sonrakı illərdə intensiv inkişafı üçün real zəmin yaratmışdır. Məhz elə bu istiqamətdə əldə edilmiş əlavə maliyyə vəsaiti hesabına, qətiyyətlə demək olar ki, ali məktəblərimizin tam əksəriyyəti maddi-texniki baza və təchizat problemlərini həll etmiş, həmin tədris müəssisələrində fəaliyyət göstərən elmi-pedaqoji kadr potensialının əmək haqları xeyli yüksəlmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, məhz elə bunun nəticəsində respublikamızın dövlət ali təhsil müəssisələri 1998-ci ildə 30.3 milyard, 2000-ci ildə 59.2 milyard, 2002-ci ildə isə 74.6 milyard manat əlavə gəlir əldə etmiş, bu vəsaitlər həmin tədris müəssisələrinin inkişafına istiqamətləndirilmişdir. O da qeyd edilməlidir ki, möhtərəm Prezidentimizin məktəblərin tikintisi və maddi-texniki bazasının möhkəmləndirilməsilə bağlı 2002-ci ilin oktyabrında imzaladığı Fərmanla bu işin perspektiv inkişaf strategiyası müəyyənləşdirilmişdir. Aparılmış analitik təhlillərə uyğun olaraq 2003-2007-ci illər üçün təmir-tikinti işlərinin dəqiq proqnozu verilmiş, nəticədə cənab Prezident tərəfindən 17 fevral 2003-cü il tarixdə xüsusi Sərəncamla 5 illik inkişaf Proqramı təsdiq edilmişdir. Həmin Proqrama əsasən 2003-2007-ci illərdə 44698 şagird yerlik 149 yeni məktəbin tikintisi, 26560 şagird yerlik 175 məktəbdə 1328 əlavə sinif otaqlarının inşaası, 164690 şagird yerlik 408 məktəbin əsaslı təmiri planlaşdırılmışdır ki, bu da Azərbaycan məktəbinin son dərəcə qısa bir müddətdə dinamik inkişafının təminatı üçün real zəmin yaratmışdır. Qeyd olunmalıdır ki, bütün bu işlərin görülməsi üçün dövlət büdcəsindən 270 milyard manata yaxın investisiya qoyuluşu nəzərdə tutulmuşdur.

Bu gün Azərbaycan təhsilində möhtərəm Heydər Əliyevin imzaladığı İslahat Proqramı və dövlət təhsil siyasətinə uyğun gələcək strateji fəaliyyəti tam dəqiqliyi ilə müəyyənləşdirilmiş, cənab Prezidentin sözlərilə desək «Azərbaycan təhsil sisteminin dünya təhsil sistemi standartlarına uyğunlaşdırılması» üçün 10 illik fəaliyyət Planı hazırlanmışdır. Strateji fəaliyyətin əsas istiqamətləri müəllim hazırlığının müasir tələblər çərçivəsində yenidən qurulması, ümumi təhsildə məzmunun təkmilləşdirilməsi, yeni qiymətləndirmə mexanizmlərinə keçid, əksmərkəzləşdirmə prinsiplərinə uyğun demokratik əsaslarla ictimai-dövlət idarəetmə modellərinin tətbiqi, dərslik siyasətinin tam realizəsi, təhsil sistemində elmin, eləcə də elmi tədqiqatların inkişaf etdirilməsi, tədris prosesində informasiya və kommunikasiya texnologiyalarından geniş formada istifadə, təminat problemlərinin uğurlu həlli, təhsilin maliyyələşdirilməsində yeni iqtisadi mexanizmlərin hazırlanması, tədris müəssisələrinin müasir kompüter texnologiyaları ilə təchizatı və proqram təminatı, təhsilalmada hamı üçün bərabər şəraitin yaradılması kimi aktual məsələləri əhatə edir. Beynəlxalq təcrübəyə əsaslanaraq müasir metodikaları, təlim texnologiyalarını, mütərəqqi üsul və vasitələri, prosesin qiymətləndirilməsinin yeni metodlarını da özündə əks etdirən Təhsil Proqramlarına ke-

çidin təmin olunması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, humanistləşdirmə prinsiplərinə əsaslanan «təhsilverən - təhsilalan» münasibətlərinin yeni – müasir modellərinin inkişaf etdirilməsi, milli tərbiyə konsepsiyasının hazırlanması, fasiləsiz təhsil kontekstində ixtisasartırma və yenidənhazırlanma təhsilinə tam yeni mexanizmlərin gətirilməsi, peşə ixtisas təhsilində mütəxəssis hazırlığının əmək bazarının və bazar iqtisadiyyatının tələblərinə uyğun həyata keçirilməsi, təhsil sisteminin inkişafına məqsədli investisiyaların cəlbi və sairə bu kimi strategiyalar Azərbaycan təhsilinin inkişaf perspektivləri kimi müəyyənləşdirilmişdir. Dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə, proyektlər, proqramlar, layihələr üzərində işlərin müntəzəm olaraq aparılması da gələcək fəaliyyət Planında öz əksini tapmışdır. Dünya Bankı ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində II Kredit Sazişinin imzalanaraq «4+3+3» modelinə uyğun həyata keçirilməsi üçün, artıq bu gün bütün komponent və altkomponentlər hazırlanmış, beynəlxalq ekspertlər və məsləhətçilərlə razılaşdırılaraq Dünya Bankının mərkəzi Ofisinə təqdim olunmuşdur ki, bu da Azərbaycan təhsilinin yaxın gələcəkdə daha da intensiv inkişafı üçün son dərəcə vacib əhəmiyyətə malikdir.

Ölkəmizin geniş ictimaiyyəti ilə bərabər, Azərbaycanda fəaliyyət göstərən Beynəlxalq Təşkilatlar, qabaqcıl dövlətlərin təhsil mütəxəssisləri və ekspertləri Azərbaycan təhsilinin inkişaf perspektivlərini yüksək qiymətləndirərək onun gələcəyinə nikbinliklə baxırlar. Bu faktın özü eyni zamanda Azərbaycanın, şəxsən ölkə başçımız möhtərəm Heydər Əliyevin dünya miqyasında malik olduğu müstəsna nüfuzu ilə birbaşa əlaqədardır. Respublikamızda demokratik dövlətin qurulması, insan hüquqlarının və azadlıqlarının Beynəlxalq konvensiyalara uyğun müdafiəsi, məqsədyönlü daxili və xarici siyasətin aparılması və bu siyasətin dünya ölkələri tərəfindən dəstəklənməsi, ölkəmizin Avropa Şurasına və digər bu kimi möhtəbər qurumlara qəbul edilməsi, bazar iqtisadiyyatının tələblərinə uyğun iqtisadi siyasətin həyata keçirilməsi Azərbaycana sivil ölkə imici qazandırmışdır. Elə bu yaxınlarda siyasət aləmində parlayan ulduzumuz, Heydər Əliyev məktəbinin ən layiqli davamçısı cənab İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının sədr müavini və Büro üzvü seçilməsi möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə aparılan və onun müəyyənləşdirdiyi xarici siyasət kursunun məntiqi davamı və təntənəsi kimi xalqımız tərəfindən yüksək dəyərləndirilir.

Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq inkişaf edəcək, təhsil islahatlarının memarı və qurucusu olan möhtərəm Prezidentimiz Heydər Əliyevin müdrik tövsiyələri bu yolda daim sönməz məşəl rolunu oynayacaqdır.